* * *

*O ağ şallı kimdir, gəldi?*
*Duası haqqa yüksəldi.*
*Yağışdan açarələndi -*
*Götür aç, qapı bağlayan.*

Qəribədir, yağışdan açar necə ələnə bilər? Niyə məhz yağışdan? Yağış da sirli bir Xudadır. Təmizdir. Paslı düşüncələri yuyur. Göydən gəlir. Açar sadəcə, burada dəmir metal deyil. Düşüncə, bəsirət gözünün açılmasıdır. Bəlkə bu açar elə nəğmədir. Oxunsa, qapı bağlayanın pas atmış düşüncəsində bir göz açılacaq. Şairin əsas məqsədi düşüncədə gizlədilmiş, ağıllarda basdırılmış açarları axtarmaqdır. Əlbəttə, sonda bütün qapılar Allah izni ilə açılır.

Əgər bir sevgi cavabsızdırsa, bir ağac çiçək açmayıbsa, orda da qapı bağlıdır. Çiçəyin gözünün, ağacın tumurcuğunun da qapısı var, bağladırsa, açarını axtarmaq gərəkdir.

*Ay şirin çiçəyim, ay qız çiçəyim,*
*Gəlişin evimə gətirib bahar.*
*Hər ağac bir çiçək bitirməyibsə,*
*Dünya məhvərindən qopar, dağılar...*

Əgər bir ağacın çiçəyi bitməyibsə, hardasa dünyanın nizamı pozulub. Bir ağacın çiçəyi yoxdursa, hardasa nəfəsimizdə oksigen çatışmazlığı baş verir. Yarpaqlar vaxtsız saralır, bir uşağın əlləri meyvə üçün göydə qalır, dişləri gec çıxır, dili gec açılır. Böyük yazıçı Taqor deyirdi:

*Ağac sevəndə çiçək olur,*
*Çiçək sevəndə meyvə.*

Sona xanım şeirlərində çiçək açmaq artıq yaşam anlamını verir. "Ay şirin çiçəyim, ay qız çiçəyim", "Hər ağac bir çiçək bitirməyibsə", "Görüm ağac kimi çiçəklərəmmi?", "Mən ağac dilində çiçəkləməsəm", "İçin çiçəkləyib çölünə çıxıb" kimi misralar şairin təbiət, gözəllik, sevgi şairi kimi səciyyələndirir.

Şair sosial problemlərin həllini təbiət vəznində və bərabərliyində həll etməyə çağırır. Sarı yarpağın özü də sosial həyatın uzanan əli, gübrənin, azotun yaşıl təbiətə müdaxiləsi kimi yozulur. Müəllifin çinara müraciəti "ilk şeir dəftəri"nə yazdığı sətirlərdən gəlir. Bu müraciət qalın kitablarda yarpaqlasa da, kökləri ilk şeir dəftərindədir.

*Bu da bir taledir - tək ağlayasan,*
*Özün öz yaranı tək bağlayasan.*
*Yola qardaş olub, sirdaş olasan,*
*Yol üstə yolların aşiqi çinar.*

Maraqlı mətndir. Çinar yolların aşiqidir. Özü də aşiqi-nalandır. Yol gözləyəndir. Bəlkə də o "gedər-gəlməzə" yol alan karvanın yolunu gözləyir. Zaman onu yaralasa da, yarasını özü sarıyır. Çinar yol gözləməyi ilə inanc yerinə çevrilir, müqəddəsləşir və milli-mənəvi əxlaqi dəyərlərimizə çevrilir.

Sona xanımın "ilk şeir dəftəri"ndən başlanan yolu ədəbi zirvələrə qovuşur. Ona görə ki, onun mətn məqsədi fərdilikdən ümumiliyə yol alır, bəşəri duyğuları özündə ehtiva edir.

*Yanımda bir kimsə ana çağırsa,*
*Burnumun ucunda bir kənd göynəyər.*

Sona Vəliyevanın şeirlərində vəhdət simvolu güclüdür. Hiss və ağıl duyğu və peşəkarlıq paralelliyi, sevgi ilə hicranın, yerlə göyün, ölümlə həyatın vəhdətindən yaranan assosiasiya müasir şeirimizin parlaq səhifələrindən biridir.

**Ədəbiyyat qəzeti.- 2017.- 18 mart.- S. 11.**